# Biznes əməliyyatları hesabatı

## 2021-ci ilin 1-ci yarısının nəticələri

# Əsas göstəricilər (2021-ci ilin 2-ci rübünün sonu)

| | |
|---|---|
| **Hasilat** | |
| **AÇG** | |
| neft (min barel/gün) | 468 |
| neft (milyon ton) | 11 |
| **Şahdəniz** | |
| qaz (milyard kubmetr) | 10 |
| kondensat (milyon ton) | 1,9 |
| **Əməliyyat məsrəfləri** (milyon dollar) | |
| **AÇG** | 266 |
| **BTC** | 69 |
| **Şahdəniz** | 1144 |
| **CQBK** | 27 |
| **Əsaslı məsrəflər** (milyon dollar) | |
| **AÇG** | 846 |
| **BTC** | 12 |
| **Şahdəniz** | 366 |
| **CQBK** | 11 |

# 2021-ci ilin mühüm hadisələri- AÇG əməliyyatları

- Birinci yarımil ərzində AÇG-də **altı neft hasilat quyusu** tamamlanıb.
- İlk neft hasilatından bəri AÇG-dən ümumi hasilat **3,9 milyard bareldən** çox olub.
- AÇG-də **yüksək sıxlıqlı seysmik tədqiqat** təhlükəsiz və qrafikə uyğun şəkildə yerinə yetirilib.



Dərinsulu Günəşli platforması

# 2021-ci ilin mühüm hadisələri –Azəri Mərkəzi Şərqi (ACE) layihəsi

- **Sualtı qurğular və birləşdirici dirsəklərin quraşdırılması** üzrə mühəndis-layihə işləri ikinci rübdə başa çatmışdır.

- Platformanın **üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri** davam etmişdir. Mexaniki avadanlıq dəstlərinin və boru xətlərinin quraşdırılması, dikəldilməsi və kabellərin çəkilməsi irəliləmiş, üst modulların sürüşdürülərək yüklənməsi üçün relslərin hazırlanmasına başlanmışdır.

- **Yaşayış modulları** Bakıya çatdırılmış, quraşdırma sahəsində boşaldılmış və ilk üç modul artıq öz mövqeyinə qaldırılmışdır.

- **Dayaq blokunun tikintisi müxtəlif** sahələrdə davam etmişdir. Mərkəzi dayaq çərçivələrinin qaynaq işləri irəliləmiş və dayaq blokunun barjın üzərinə sürüşdürülməsi əməliyyatına hazırlıq işlərinə başlanmışdır.



Bibiheybətdə platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri

# 2021-ci ilin mühüm hadisələri – Şahdəniz əməliyyatları

- Şahdəniz yatağından ilk hasilat başlandığı vaxtdan ümumilikdə təqribən **145 milyard kubmetr qaz** və **33 milyon tondan çox kondensat** əldə edilib.
- 4 iyun tarixində Şahdəniz **Hasilatın Pay Bölgüsü haqqında Sazişin imzalanmasının 25 illiyini** qeyd edib.
- Dənizdə bütün əlaqədar quraşdırma və istismar sınaqları uğurla başa çatdıqdan sonra 30 iyun tarixində Şahdəniz 2 çərçivəsində **dərinsulu Şərq-Cənub cinahından hasilat başlanıb.**



Şahdəniz Bravo platforması və təchizat gəmisi

# 2021-ci ilin mühüm hadisələri – Səngəçal terminalı

- 2021-ci ilin 1-ci yarısında Səngəçal terminalından təqribən **115 milyon barel neft** və **9,9 milyard kubmetr Şahdəniz qazı** ixrac olunub.
- Hazırda terminal gündəlik **1,2 milyon barel neft və kondensat** və **100 milyon kubmetr qaz** (o cümlədən 81 milyon kubmetr Şahdəniz qazı) ixrac etmə gücünə malikdir.



Səngəçal terminalı

# Geoloji kəşfiyyat üzrə mühüm hadisələr

- Şəfəq-Asiman dəniz blokunda **ilk kəşfiyyat quyusunun qazılması** 2021-ci ilin mart ayında Fasilə lay dəstində 7189 m dərinlikdə **tamamlanıb.**
- Dayazsulu Abşeron blokunda qazılacaq **ilk kəşfiyyat quyusu üzrə Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi** 2021-ci ilin yanvar ayında hökumət tərəfindən təsdiqlənib və bununla da quyunun 2021-ci ilin 3-cü rübündə qazılmasına başlamaq üçün müvafiq icazələr alınmış olub.
- D230 dəniz blokunda **seysmik məlumatların interpretasiyası davam edir.**



Satti qazma qurğusu



Heydər Əliyev qazma qurğusu

# Yerli kadrlar

- 2344 nəfər Azərbaycan vətəndaşı bp-də işləyir (müddətli müqavilə əsasında işləyənlər daxildir).
- Azərbaycanda ixtisaslı işçilərin 90%-i yerli kadrlardır.

**Azərbaycanda ixtisaslı daimi işçilər**









# 2021-ci ilin 1-ci yarısında yerli ehtiyatlardan istifadə

| Yerli podratçılar/təchizatçılar (Azərbaycan-Gürcüstan-Türkiyə regionu) | Sayı | Xərclənib (milyon dollar) | |
|---|---|---|---|
| • Kiçik və orta müəssisələr | 182 | 186,9 | Ümumi üçüncü tərəf xərclərinin 62%-i |
| • Dövlət şirkətləri | 22 | 20,4 | |
| • Yerli tərəfdaşı olan birgə müəssisələr | 13 | 532,8 | |
| • Xarici podratçıların ölkə daxilində məsrəfləri | | 202,3 | |
| **Ölkə daxilində cəmi xərclər[1]** | | **942,4** | |

1. Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.



# 2021-ci ilin 1-ci yarısında sosial təşəbbüslər

**Azərbaycanda sosial təşəbbüslər**
(ödənilmiş, min dollar)

| | |
|---|---|
| bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları | 488 |
| bp100% | 413 |
| **Cəmi** | **901** |


Aztəminatlı ailələrin uşaqları üçün ali təhsil imkanlarının yaradılması - “Gələcəyini Qur” layihəsi


Azərbaycanda kompüter elmləri və data analitikası potensialının gücləndirilməsi


Texnologiyalar sahəsində yeni nəsil mütəxəssislərin yetişdirilməsi – “IBA Tech Academy”


İcmalarda yaxşılaşdırılmış infrastrukturdan istifadə etmək imkanlarının yaradılması


Kənd yerlərindəki qadınların kiçik sahibkarlıq səriştələrinin və bacarıqlarının inkişaf etdirilməsi